*Azərbaycan Respublikası təhsil nazirinin*
*14 aprel 2015-ci il tarixli, 430 nömrəli*
*əmri ilə təsdiq olunmuşdur*

# “Meşələri qoruyaq” gənc meşəçilərin IV Respublika müsabiqəsinin

# ƏSASNAMƏSİ

## Müsabiqənin məqsədi

Müsabiqənin məqsədi məktəblilərdə meşəsalma sahəsində biliklərini artırmaqla yanaşı, onlarda ekoloji dünyagörüşün, ətraf mühitə qayğıkeş münasibətin formalaşması, meşələrin qorunması, bərpası, davamlı istifadəsi sahəsində xüsusi bacarıq və vərdişlərin öyrədilməsini inkişaf etdirməkdir.

## Müsabiqənin vəzifələri:

- Meşələrin biosferdə qlobal əhəmiyyəti barədə məktəblilərin ekoloji biliklərini artırmaq;
- Ölkənin meşə ehtiyatlarının mühafizəsində, bərpa edilməsində və artırılmasında gənc nəslin fəal iştirakına nail olmaq;
- “Gənc meşəçilər” dəstələri vasitəsi ilə ekoloji təbliğatı genişləndirmək;
- Meşə ehtiyatlarının öyrənilməsi, məktəblilərdə ekoloji tədqiqatlara marağın artırılması, meşələrin bioloji müxtəlifliyinə antropogen təsirin qiymətləndirilməsi məqsədilə məktəb ekoloji monitorinqlərinin təşkili;
- Meşə ehtiyatlarının davamlı istifadəsi barədə biliklərin məktəblilər tərəfindən əhali arasında təbliğ edilməsinə nail olmaq;
- Xüsusi bilik, bacarıq və səriştəyə malik olan şagirdlərin meşəçilik sahəsində ixtisas seçimini və peşəyönümünü istiqamətləndirmək.

## Müsabiqənin təşkili və keçirilməsi

Müsabiqənin keçirilməsinə ümumi rəhbərlik Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən həyata keçirilir.

Müsabiqə 2 mərhələdə keçirilir:

1. Rayon (şəhər) mərhələsi – aprel 2015-ci il;
2. Respublika mərhələsi – may 2015-ci il

Müsabiqədə orta ümumtəhsil məktəblərinin V-XI sinif şagirdləri, ekoloji və turizm profilli məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri iştirak edə bilər. Hər iştirakçı müsabiqəyə meşələrin qorunması və bərpasına dair 1 ekoloji layihə təqdim edə bilər (əlavə 1).

Layihələrdə aşağıdakı istiqamətlərdə aparılan ekoloji tədqiqatların nəticələri əks etdirilir:

1. Meşə ekologiyası və davamlı idarəetmə – ərazinin meşə tipləri, meşənin inkişaf qanunauyğunluqları, təbiət abidələri, peşəkar ekoloqların iştirakı ilə antropogen təsirin öyrənilməsi və qiymətləndirilməsi, meşənin qırılmasının qarşısının alınması, yeni meşə zolaqlarının salınması, meşə ehtiyatlarının davamlı istifadəsi və bərpa olunması üsulları, meşənin ekoloji vəziyyətini əks etdirən tədqiqatların nəticələri, meşə yanğınlarına qarşı profilaktik tədbirlər, “gənc meşəçilər“ dəstələrinin fəaliyyəti;

2. Meşənin faunası – meşə heyvanlarının ekologiyası və həyat tərzi, faunanın bioloji müxtəlifliyi, nadir heyvanların qorunması, meşə ekosistemində canlılar arasında qarşılıqlı əlaqələr, biomüxtəlifliyin tükənməsinin qarşısının alınması üsulları, ekoloji cığırların təşkili;

3. Meşənin florası – meşə bitkilərinin ekologiyası, floranın bioloji müxtəlifliyinin öyrənilməsi, geobotaniki və ekoloji tədqiqatlar, meşə yaruslarında qarşılıqlı əlaqələr, nadir və endemik bitkilərin qorunması, qida və dərman bitkilərinin davamlı istifadəsi, meşə bitkilərinin tədris-təcrübə sahəsində artırılması və tükənmiş meşə sahələrinin bərpası.

Müsabiqəyə təqdim olunan layihələrin aktuallığı, elmiliyi, praktik əhəmiyyəti, ekoloji tədqiqatların əsaslandırılması, nəticələrin keyfiyyəti və əyaniliyi qiymətləndirmək üçün əsas meyarlardır.

- Layihələrin elektron versiyası Times New Roman (AZ) 12 şriftlə, 1 intervalda, hər tərəfdən 2 sm məsafə qoyulmaqla A4 formatda foto-şəkillər, cədvəllər, xəritələr, rəsmlər ilə birlikdə 10 səhifəyə qədər olmaqla aşağıdakı elektron ünvana göndərilməlidir: baku_ettm@mk.gov.az;
- Layihənin tərtibat qaydası https://www.facebook.com/mesheleringorunmasi səhifəsində göstərilir. İştirakçılar facebook səhifəsində qeydiyyatdan keçdikdən sonra (adı, soyadı, rayon, məktəb səhifədə verilən məlumatda qeyd olunmalıdır) layihəni elektron ünvana göndərə bilərlər. Ekoloji layihələrdə giriş, tədqiqatın obyekti, üsulları, tədqiqatın gedişatı, təhlili, nəticələr və ədəbiyyat siyahısı ətraflı şərh olunmalıdır.
- Layihənin titul vərəqində müəllifin adı, soyadı, atasının adı, rayon (şəhər), məktəb, sinif, ünvan, əlaqə telefonu, layihə rəhbərinin, elmi məsləhətçinin adı və soyadı göstərilməlidir.
- Müsabiqədə iştirak edən gənc meşəçilər dəstəsinin (qrupun) üzvləri https://www.facebook.com/pages/Respublika-Ekoloji-Tərbiyə-və-Təcrübəçilik-Mərkəzi/413732312129602 ayrıca səhifəsində qeydiyyatdan keçməlidirlər. İştirakçılar gənc meşəçilər dəstəsinin (qrupun) adından da 1 layihə təqdim edə bilərlər.

Müsabiqənin rayon mərhələsinin qaliblərinin (I, II, III yerlər) ekoloji layihələrinin elektron versiyası 2015-ci ilin 10 may tarixinədək Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzinə göndərilməlidir (Ünvan: AZ1025 Bakı ş., Təhsil Nazirliyi Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi, Nobel prospekti 45/57 Nizami adına park, tel: 496-44-24, 496-46-33; e-mail: baku_ettm@mk.gov.az).

**Qeyd:** Müsabiqənin Respublika mərhələsinin qaliblərinin və onları müşayət edən rəhbərlərin ezamiyyə xərcləri rayon (şəhər) təhsil şöbələri (idarələri) tərəfindən ödənilməlidir.

Müsabiqənin münsiflər heyətinin tərkibinə ekoloji sahədə tanınmış elmi işçilər, mütəxəsislər daxil edilmişdir. Müsabiqədə qaliblərin seçimi ilə bağlı mübahisəli məsələlər yaranarsa təşkilat komitəsi tərəfindən həmin məsələlərə baxılacaqdır.

## Qaliblərin mükafatlandırılması

Müsabiqənin Respublika mərhələsinin qalibləri Təhsil Nazirliyinin diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılacaqdır.